**Gələcəyə dəstək**

# İstedadlı tələbələrdən biri də Nurandır

**Hansı sahədə olursa olsun, istər işlədiyin, istərsə də təhsil aldığın yerdə seçilmək, öndə getmək üçün istedad başlıca şərtdir. İstedad və bilik insan üçün mənəvi gücdür, onu uğurlara aparan qüvvədir, gələcəyə gedən yollarında yanan, heç vaxt sönməyən işıqdır, nurdur.**

Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin 3-cü kurs tələbəsi Nuran Yaqub da istedadı ilə seçilən və tanınan gənclərdən biridir. Ədəbiyyata, söz sənətinə böyük maraq və sevgi göstərən Nuran iştirakçısı olduğu bir çox yaradıcılıq müsabiqələrində uğurlar qazanır, adı birincilər sırasında çəkilir. Qazandığı uğurlarına görə də müəllimlərinə minnətdar olduğunu deyir, onların diqqət və qayğısından ürəkdolusu danışır.

Nuranın ömür yoluna nəzər salanda öyrəndik ki, o, 26 fevral 2007-ci ildə Yevlax şəhərində dünyaya göz açıb. 2012-ci ildə şəhərdəki Sahib Əliyev adına 1 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. İlk günlərdən kitablara mehrini salıb, dərslərini yaxşı oxuyub. Buna görə də həmişə yüksək qiymətlər alıb, seçilənlərdən olub. Nuran dərslərini yaxşı oxumaqla yanaşı, məktəbin ictimai həyatında da fəallıq göstərib. Keçirilən tədbirlərdə həvəslə iştirak edib. Bu bacarığına görə həm müəllimlərinin, həm də sinif yoldaşlarının hörmətini qazanıb.

Nuran 2023-cü ildə orta təhsilini uğurla başa vurub. İllərdən bəri ürəyində əzizləyə-əzizləyə gəzdirdiyi arzusuna



çatmaq üçün Bakı Dövlət Universitetinə üz tutub. Hazırlığı yüksək olduğuna görə istəyinə çatıb, bu ali təhsil ocağının Filologiya fakültəsinə qəbul olub.

Artıq Nuran 3-cü kursda oxuyur. İkillik təhsilini yüksək qiymətlərlə, müsbət nəticələrlə başa vurub. Nuran təhsillə yanaşı, yaradıcılığa da böyük maraq göstərir. Şeir və hekayələr yazır. Dediyinə görə, poeziyadan daha çox nəsrə üstünlük verir. "Kulis.az" saytında köşə yazıları işıq üzü görür. Yazdıqlarını oxucular maraqla qarşılayır, təhkiyəsi və ifadə tərzi ilə diqqəti cəlb edir.

Arxada qalmış illər ərzində Nuranın uğurları çox olub. O, 2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Elm və Təhsil, Mədəniyyət nazirliklərinin keçirdiyi "Uşaq incəsənət festivalı"nda hekayəçilik nominasiyasında 1-ci yerə çıxıb. Münsiflər heyətinin qarşısında qələmə aldığı "Qoca uşaq" hekayəsini canlandırıb. Festivalda qazandığı uğurlara görə diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Qazandığı uğur və layiq görüldüyü mükafatlar onu yeni zirvələr fəth etməyə həvəsləndirib.

Söhbətimiz zamanı onu da öyrəndik ki, Nuran təhsildə də fərqlənir, bir qayda olaraq imtahanlardan yüksək qiymətlər alır. Buna görə də Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının tələbə təqaüdünə layiq görülüb. Onu da deyək ki, həmkarlar təşkilatı 100 nəfər seçilən tələbəyə təqaüd ayırıb. Həmin yüz nəfərdən biri də yaradıcılığı və fəaliyyəti haqqında qısaca söhbət açdığımız Nurandır. Tələbə qız həm də fakültə həmkarlar təşkilatının sədri kimi fəaliyyət göstərir.

Nuranın həm xarici, həm də milli ədəbiyyata marağı böyükdür. Mütaliəsi zəngin olan tələbə qız klassik və həm də müasir ədəbiyyata üstünlük verir. Azərbaycanın dahi şairləri Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin və başqalarının əsərlərini sevə-sevə oxuyur. Xarici yazıçılardan Şekspirin və Folknerin əsərlərinə üstünlük verir. Nə qədər işləri çox olsa da, Nuran müasir ədəbiyyatı oxumağa da vaxt ayıra bilir. Yazıçı və şairlərdən Şərif Ağayarın, Aqşin Yeniseyin, Qismət Rüstəmovun və başqalarının yaradıcılığını maraqla izləyir. Mütaliə ilə yanaşı, Nuran öz yaradıcılığından da qalmır. Böyük həvəslə yazıb-yaradır.

Nuran Yaqub istedadlı gəncdir, necə deyərlər, hələ parlaq gələcəyi qarşıdadır. İnanırıq ki, o, bu günə qədər qazandığı uğurlarını gələcəkdə də davam etdirəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.-29 avqust (№182).- S.6.